# Hüquqi şəxslərin dövlət reyestrinin aparılması, istifadəsi və mühafizəsi

# Q A Y D A L A R I

## 1. Ümumi müddəalar

1.1. Bu Qaydalar "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 12 aprel tarixli, 48 nömrəli Fərmanına uyğun olaraq hazırlanmışdır və kommersiya, qeyri-kommersiya və publik hüquqi şəxslərin, dini qurumların, xarici hüquqi şəxslərin nümayəndəlik və filiallarının (bundan sonra — qurum), həmçinin Azərbaycan Respublikasının ərazisində dövlət qeydiyyatına alınmış hüquqi şəxsin nümayəndəliyi və ya filialı, habelə digər qurumların dövlət reyestrinin (bundan sonra — dövlət reyestri) aparılması, istifadəsi və mühafizəsi qaydalarını müəyyən edir.

1.2. çıxarılıb.

1.3. Hüquqi şəxslərin dövlət reyestri "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikası Prezidentinin "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2004-cü il 12 aprel tarixli 48 nömrəli, "Azərbaycan Respublikası Prezidentinin hüquqi şəxslərin dövlət qeydiyyatı ilə bağlı bəzi fərmanlarına dəyişikliklər edilməsi və bəzi fərmanlarının qüvvədən düşmüş hesab edilməsi barədə" 2004-cü il 2 dekabr tarixli 149 nömrəli və "Sahibkarlıq fəaliyyəti subyektlərinin dövlət qeydiyyatının "bir pəncərə" prinsipinə uyğun təşkili ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" 2008-ci il 20 fevral tarixli 713 nömrəli fərmanlarına, bu Qaydalara və digər normativ hüquqi aktlara uyğun olaraq aşağıdakı orqanlar tərəfindən aparılır:

1.3.1. qeyri-kommersiya hüquqi şəxslərinin, xarici qeyri-kommersiya hüquqi şəxslərinin filial və nümayəndəliklərinin, dövlət reyestri Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin müəyyən etdiyi bölgü üzrə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri, Naxçıvan Muxtar Respublikasının ərazisində təsis edilən siyasi partiyalar, xarici ölkələrin qeyri-hökumət təşkilatlarının filial və nümayəndəlikləri istisna olmaqla, digər qeyri-kommersiya qurumlarının dövlət reyestri Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi tərəfindən aparılır;

1.3.2. kommersiya hüquqi şəxslərinin və publik hüquqi şəxslərin dövlət reyestri Azərbaycan Respublikası Vergilər Nazirliyinin müəyyən etdiyi bölgü üzrə həmin Nazirliyə bilavasitə tabe olan vergi orqanlarının bu Qaydalara uyğun tərtib etdikləri reyestrlərin məlumatları əsasında Azərbaycan Respublikası Vergilər Nazirliyinin informasiya sistemində elektron daşıyıcılarda mərkəzləşdirilmiş qaydada tərtib edilir;

1.3.3. dini qurumların dövlət reyestri Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən aparılır.

1.4. çıxarılıb.

1.5. çıxarılıb.

1.6. Dövlət reyestri Azərbaycan Respublikasının informasiya ehtiyatıdır və qeydiyyat orqanları informasiya ehtiyatının mühafizəsini və qanunla müəyyən edilmiş qaydada istifadəsini təmin edirlər.

1.7. Hüquqi şəxslərin dövlət reyestri Azərbaycan Respublikasının dövlət mülkiyyətindədir.

## 2. Dövlət reyestrinin əsas prinsipləri

2.1. "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun 12-ci maddəsinə uyğun olaraq dövlət reyestrinin əsas prinsipləri aşağıdakılardır:

2.1.1. çıxarılıb.

2.1.2. dövlət reyestri vahid forma, metod və prinsiplər əsasında aparılır, kağız və elektron daşıyıcılarda tərtib edilir.

2.2. Dövlət reyestrinin elektron daşıyıcılarda tərtib edilməsi təşkilati, metodoloji və texniki-proqram prinsiplərinin tətbiqinə əsaslanır və dövlətin digər informasiya sistemləri və şəbəkələri ilə onun qarşılıqlı əlaqədə və vəhdətdə fəaliyyət göstərməsi təmin edilir.

2.3. Dövlət reyestri aşağıdakılardan ibarətdir:

2.3.1. qurumların təşkili, qeydiyyatı, yenidən təşkili, ləğvetmə prosesində olması, ləğv edilməsi, eləcə də qeyri-hökumət təşkilatlarının və xarici qeyri-hökumət təşkilatının filial və ya nümayəndəliyinin fəaliyyətinin dayandırılması və bərpası barədə məlumatlar;

2.3.1-1. Azərbaycan Respublikasında xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəliklərinin dövlət qeydiyyatı ilə əlaqədar bağlanmış sazişin (bundan sonra - Saziş) qüvvədə olma müddəti barədə məlumat;

2.3.2. təsis sənədlərində dəyişikliklərin edilməsi və qeydə alınmış faktların hər bir sonrakı dəyişikliyi barədə məlumatlar;

2.3.3. Azərbaycan Respublikasının ərazisində dövlət qeydiyyatına alınmış hüquqi şəxsin nümayəndəliyi və ya filialı, habelə digər qurumları barədə məlumatlar;

2.3.3-1. ləğv edilmiş qeyri-hökumət təşkilatlarının və xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və nümayəndəliklərinin əmlak məsələlərinin Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulmuş qaydada həll olunması, quruma edilmiş xəbərdarlıqlar, verilmiş göstərişlər və onların icrası barədə, habelə fəaliyyətinin dayandırılması və bərpası barədə məlumatlar;

2.3.4. qanunvericiliklə müəyyən edilmiş və saxlanmaq üçün qeydiyyat orqanına təqdim edilmiş sənədlər toplusu.

2.3.5. elektron informasiya, habelə kommersiya və qeyri-kommersiya qurumlarına, publik hüquqi şəxslərə dair kağız daşıyıcılarda olan məlumatlar.

2.4. Kommersiya, qeyri-kommersiya və publik hüquqi şəxslərin reyestr məlumatlarının daşıyıcıları olan dövlət reyestr kitabları, "Reyestrdə dəyişiklik edilməsi barədə müraciətlər" kitabları, "Arxiv sənədlərinin uçotu" kitabları və əvvəllər başqa orqanlarda qeydiyyata alınmış hüquqi şəxslərin uçot kitabları da dövlət reyestrinin tərkibinə daxil edilir.

2.5. Elektron informasiya daşıyıcıları dövlət reyestrinin tərkib hissəsidir.

2.6. Dövlət reyestri illər üzrə və Azərbaycan Respublikasının hər bir inzibati ərazi vahidi (rayon və ya şəhər) üzrə aparılır.

2.7. Dövlət qeydiyyatının ərazi aidiyyəti qurumun hüquqi ünvanı əsasında müəyyən edilir.

## 3. Dövlət reyestrinə daxil edilən məlumatlar

3.1. “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikası Qanununun 14-cü maddəsinə əsasən dövlət reyestrində aparılan yazıda reyestrə daxil edilmiş qurumlar barədə aşağıdakı məlumatlar əks etdirilməlidir:
3.1.1. qurumun adı (firma);
3.1.2. qurumun hüquqi ünvanı (daimi fəaliyyət göstərən orqanının, siyasi partiyada rəhbər orqanlarının qərargahının yerləşdiyi yerə dair məlumat);
3.1.3. qurumun təşkilati-hüquqi forması;
3.1.4. maliyyə ili;
3.1.5. vergi ödəyicisinin eyniləşdirmə nömrəsi (kommersiya qurumları və publik hüquqi şəxslər üçün), qeyri-kommersiya qurumunun qeydiyyat nömrəsi;
3.1.6. qurumun hər bir təsisçisinin adı, soyadı, atasının adı, vətəndaşlığı və yaşayış yeri; təsisçi hüquqi şəxsdirsə, onun adı, hüquqi ünvanı və qeydiyyatı, təsisçi dövlətdirsə, təsisetmə səlahiyyəti verilmiş dövlət orqanının adı, hüquqi ünvanı, vergi ödəyicisinin eyniləşdirmə nömrəsi (olduğu halda), təsisçi bələdiyyədirsə, bələdiyyənin adı, hüquqi ünvanı, vergi ödəyicisinin eyniləşdirmə nömrəsi haqqında məlumatlar;
3.1.7. qurumun hər bir qanuni təmsilçisinin adı, soyadı, atasının adı, vətəndaşlığı və yaşayış yeri;
3.1.8. hüquqi şəxsin Azərbaycan Respublikasının ərazisində və ya Azərbaycan Respublikasının hüdudlarından kənarda yaratdığı qurumların olduğu yer, təşkilati-hüquqi forması və qeydiyyatı haqqında məlumatlar;
3.1.9. hüquqi şəxsin əmlakının, təsisçilərin paylarının yüklülüyü;
3.1.10. qurumun ləğvetmə prosesində olması;
3.1.11.-çıxarılıb.
3.1.12. qurumun ləğv edilməsi;
3.1.13. təsis sənədlərinə edilən hər bir dəyişiklik və qeydə alınmış faktların hər bir sonrakı dəyişikliyi.
3.2. Dövlət reyestrində bu Qaydaların 3.1-ci bəndində və “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikası Qanununun 14.2-ci maddəsində nəzərdə tutulmuş məlumatlardan əlavə, hüquqi şəxsin təşkilati-hüquqi formasından asılı olaraq aşağıdakı məlumatlar göstərilməlidir:
3.2.1. kommandit ortaqlığında — hər bir kommanditçinin mayasının miqdarı;
3.2.2. məhdud məsuliyyətli cəmiyyətdə və ya səhmdar cəmiyyətində — nizamnamə kapitalının miqdarı, hər bir təsisçinin mayasının miqdarı, direktorlar şurası (müşahidə şurası) yaradıldığı halda, onun hər bir üzvünün adı, soyadı, atasının adı və yaşayış yeri;
3.2.2-1. publik hüquqi şəxsdə - nizamnamə fondunun miqdarı, təsisçi (təsisçilər) tərəfindən verilmiş əmlakın miqdarı, direktorlar şurası (müşahidə şurası) yaradıldığı halda, onun hər bir üzvünün adı, soyadı, atasının adı və yaşayış yeri;
3.2.3. qeyri-kommersiya təşkilatlarında - fəaliyyət predmeti və məqsədləri, fəaliyyət ərazisi qurumun əcnəbi və ya vətəndaşlığı olmayan şəxs olan təsisçisinin (təsisçilərinin) daimi yaşamaq üçün icazə müddətinin bitməsi tarixi;
3.2.3-1. dini qurumların mənsub olduğu dini konfessiya haqqında məlumatlar;
3.2.3-2. qeyri-hökumət təşkilatlarında - ictimai birliyin üzvlərinin sayı, icra orqanlarının tərkibi və səlahiyyət müddəti, qurumun əcnəbi və ya vətəndaşlığı olmayan şəxs olan qanuni təmsilçisinin (təmsilçilərinin) daimi yaşamaq üçün icazə müddətinin bitməsi tarixi ləğv edilmiş qurumun əmlak məsələlərinin Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulmuş qaydada həll olunması, quruma edilmiş

xəbərdarlıqlar, verilmiş göstərişlər və onların icrası barədə, habelə fəaliyyətinin dayandırılması və bərpası barədə məlumatlar;

3.2.3-3. fondlarda - himayəçilər şurasının üzvləri, fondun nizamnamə kapitalının və təsisçilərin əmlak paylarının həcmi;

3.2.3-4. xarici qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəliklərində - Azərbaycan Respublikasında filial və ya nümayəndəliyi olan xarici qeyri-hökumət təşkilatının təsisçiləri, habelə filial və ya nümayəndəliyin icra orqanlarının tərkibi və səlahiyyət müddəti, qurumun əcnəbi və ya vətəndaşlığı olmayan şəxs olan qanuni təmsilçisinin (təmsilçilərinin) daimi yaşamaq üçün icazə müddətinin bitməsi tarixi rəhbərinin müavininin adı, soyadı, atasının adı, vətəndaşlığı, yaşayış yeri, səlahiyyət müddəti, ləğv edilmiş qurumun əmlak məsələlərinin Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulmuş qaydada həll olunması, quruma edilmiş xəbərdarlıqlar, verilmiş göstərişlər və onların icrası, habelə fəaliyyətinin dayandırılması (tarixi və müddəti) və bərpası (tarixi) barədə məlumatlar;

3.2.4. təhsil müəssisələrində - mülkiyyət növü, ali idarəetmə orqanının üzvləri, kommersiya hüquqi şəxsi olan təhsil müəssisəsində nizamnamə kapitalı və təsisçilərin əmlak paylarının miqdarı haqqında məlumatlar;

3.2.5. Sazişin qüvvədə olma müddəti barədə məlumat.

## 4. Dövlət reyestrinin aparılması

4.1. Qurumlar barədə məlumatlar aşağıdakılar mövcud olduqda dövlət reyestrinə daxil edilir:

4.1.1. qurumlar qanunvericiliyə uyğun olaraq dövlət qeydiyyatına alındıqda;

4.1.2. qurumun dövlət qeydiyyatına alınması barədə məhkəmənin qərarı olduqda;

4.1.3. quruma qanunvericiliklə müəyyən edilmiş müddətdə dövlət qeydiyyatına alınmasından imtina barədə cavab verilmədikdə.

4.2. Qeyri-kommersiya qurumlarının Qeydiyyat (reyestr) məlumatları Dövlət reyestr kitabında yazılır. Dövlət reyestr kitabı kağız və elektron variantda tərtib edilir.

4.2-1. Kommersiya qurumlarının, publik hüquqi şəxslərin qeydiyyat (reyestr) məlumatları AVİS-ə işlənilməklə, məlumat bazasına daxil edilir. Məlumatlar elektron daşıyıcılardan emal edilir və sistem tərəfindən dövlət qeydiyyatı nömrəsi (vergi ödəyicisinin eyniləşdirmə nömrəsi) verilir. “Kommersiya hüquqi şəxslərinin dövlət reyestr kitabı”nın, “Publik hüquqi şəxslərin dövlət reyestr kitabı”nın kağız variantı qeydiyyat məlumatlarının elektron daşıyıcılardan kağız üzərinə çap edilərək, xüsusi kitablara tikilməklə aparılır. Kommersiya qurumlarının, publik hüquqi şəxslərin dövlət qeydiyyatı və qeydiyyat məlumatlarının dəyişdirilməsi zamanı dövlət reyestr kitabına həmin dəyişikliyi özündə əks etdirən yeni səhifə əlavə edilir.

4.3. Qeyri-kommersiya qurumlarının Dövlət reyestr kitabı kağız daşıyıcısı üzərinə parça yapışdırılmış qalın karton üzlü, qalın və keyfiyyətli kağızda, möhkəm cildlənmiş vəziyyətdə 34x27 sm ölçüdə tərtib edilir, qaytanlanır və möhürlənir.

4.4. Qeyri-kommersiya qurumlarının hər bir reyestr kitabı il tamam olduqda bağlanır və növbəti il üçün yeni kitab tərtib edilir.

4.4-1. Kommersiya qurumları və publik hüquqi şəxslər üzrə hər reyestr kitabına sayı 50-dən az olmayan kommersiya qurumuna və publik hüquqi şəxsə aid məlumatlar yığılır. Qurumların sayı çox olduqda, informasiya sistemində verilmiş nömrəyə uyğun yeni kitab açılır.

4.5. Qeyri-kommersiya qurumlarının dövlət reyestr kitabı hər bir quruma dair hər biri 2 səhifədən ibarət olan 2 bölmədən ibarətdir (1-ci bölmə “Ümumi məlumatlar”, 2-ci bölmə “Məqsədi, əmlak vəziyyəti” adlanır). Filial və nümayəndəliklərin Dövlət reyestr kitabında hər bir quruma 4 səhifə ayrılır. Reyestr kitablarının sonunda 4 səhifə xüsusi qeydlər üçün nəzərdə tutulur.

4.6. Qeyri-kommersiya qurumlarının dövlət reyestr kitabının Hər səhifənin sağ yuxarı hissəsində qeydiyyat (reyestr) nömrəsi, qurumun dövlət qeydiyyatının tarixi və səhifənin sıra nömrəsi göstərilir.

4.6-1. “Kommersiya hüquqi şəxslərinin dövlət reyestr kitabı”nın, “Publik hüquqi şəxslərin dövlət reyestr kitabı”nın hər səhifəsinin yuxarı sağ hissəsində “Qeydiyyat nömrəsi (VÖEN)”, “Kitab nömrəsi” və “Kitabdakı sıra nömrəsi” göstərilir. Bu məlumatlar informasiya sistemində müəyyən edilərək, kitabın müvafiq vərəqində çap edilir.

4.7. Qeyri-kommersiya qurumlarının dövlət reyestr kitabının üstündə Dövlət reyestr kitabının kodu (nömrəsi), reyestrin aparıldığı il və reyestrin başlanğıc və son sayını göstərən rəqəmlər göstərilməlidir (misal üçün, C1, 2004, Reyestr № 1-50).

4.8. Qeyri-kommersiya qurumlarının Dövlət reyestr kitabında yol verilmiş səhvlər yeni qeyd etməklə aradan qaldırılır. Bu halda qüvvəsini itirməli olan qeydin üstündən xətt çəkilir və bu qaydalara uyğun yeni qeydlər edilir. Yeni qeyddə qüvvəsini itirmiş yazıya istinad edilməlidir.

4.8-1. Kommersiya hüquqi şəxslərinin dövlət reyestr kitabı”nda, “Publik hüquqi şəxslərin dövlət reyestr kitabı”nda yol verilmiş səhvlər informasiya sistemində düzəliş etməklə aradan qaldırılır.

4.9. Dövlət reyestr kitabının tətbiq edilməsi məsələləri ilə bağlı dövlət qeydiyyat orqanlarına metodiki rəhbərliyi qeyri-kommersiya qurumları üzrə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, kommersiya qurumları və publik hüquqi şəxslər üzrə Azərbaycan Respublikasının Vergilər Nazirliyi, dini qurumlar üzrə Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi həyata keçirirlər.

4.10. Qeyri-kommersiya qurumlarının dövlət reyestr kitabının hər sütununda qeydə alınmalı faktlar aşağıdakı qaydada kodlaşdırılır:

A) adı; B) təşkilati-hüquqi forması; C) hüquqi ünvanı; M) maliyyə ili; R) fəaliyyət ərazisi; V) hüquqi varislik: F) hüquqi şəxsin təsisçiliyi ilə yaradılmış filial, nümayəndəliklər və digər qurumlar haqqında məlumatlar; L) ləğv edilməsi; FD) qeyri-hökumət təşkilatlarında və xarici qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəliklərində - fəaliyyətinin dayandırılması və bərpası haqqında məlumatlar; XG) qeyri-hökumət təşkilatlarında və xarici qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəliklərində - quruma edilmiş xəbərdarlıqlar, verilmiş göstərişlər və onların icrası haqqında məlumatlar; ÜS) qeyri-hökumət təşkilatlarında - ictimai birliyin üzvlərinin sayı T) hər bir qanuni təmsilçinin adı, soyadı, atasının adı, vətəndaşlığı və yaşayış yeri haqqında məlumatlar; "RM) xarici qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəliklərində - filial və ya nümayəndəliyin rəhbərinin müavininin adı, soyadı, atasının adı, vətəndaşlığı, yaşayış yeri, səlahiyyət müddəti barədə məlumatlar; N) fondlarda Himayəçilər Şurasının üzvlərinin hər birinin adı, soyadı, atasının adı, vətəndaşlığı və yaşayış yeri haqqında məlumatlar; S) hər bir təsisçinin adı, soyadı, atasının adı, vətəndaşlığı və yaşayış yeri, təsisçi hüquqi şəxsdirsə, onun adı, hüquqi ünvanı və qeydiyyatı haqqında məlumatlar; XT) xarici qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəliklərində - Azərbaycan Respublikasında filial və ya nümayəndəliyi olan xarici qeyri-hökumət

təşkilatının təsisçiləri barədə məlumatlar; İ) fəaliyyət predmeti və məqsədi (dini qurumlar üçün həm də mənsub olduğu dini konfessiya); K) fondlarda nizamnamə kapitalının miqdarı; P) fondlarda təsisçilərin əmlak payının miqdarı; İO) qeyri-hökumət təşkilatlarında və xarici qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəliklərində - qurumun icra orqanlarının tərkibi və səlahiyyət müddəti qurumun əcnəbi və ya vətəndaşlığı olmayan şəxs olan qanuni təmsilçisinin (təmsilçilərinin) daimi yaşamaq üçün icazə müddətinin bitməsi tarixi haqqında məlumatlar; E) çıxarılıb;J) çıxarılıb;G) çıxarılıb; SZ) Sazişin qüvvədə olma müddəti barədə məlumat; SM) çıxarılıb; LP) qurumun ləğvetmə prosesində olması barədə məlumat; LY) çıxarılıb;Ə) qeyri-hökumət təşkilatlarında və xarici qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəliklərində - ləğv edilmiş qurumun əmlak məsələlərinin Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulmuş qaydada həll olunmasına dair məlumatlar; Q) digər qeydlər.

4.11. Qeyri-kommersiya qurumlarının qeydə alınmış hər bir faktın sonrakı dəyişikliyində faktın koduna istinad edilməlidir. Hər bir faktın qeydiyyatı sıra ardıcıllığı ilə (misal üçün, A-1, A-2, A-3 və s.).

Faktların qeydə alınma tarixi sütununda qeydə alınmış faktların və dəyişikliyin sayına istinad edilməklə, onların qeydiyyat tarixi göstərilir (A-1 21.03.2003, A-2 10.01.2004, A-3 30.05.2004 və s.).

4.12. Qeyri-kommersiya qurumlarının dövlət reyestr kitabına daxil edilən məlumatlar bu məlumatların əks etdirilməsi üçün ayrılmış bölməyə yerləşmirsə, həmin bölməyə əlavə vərəqlər tikilməlidir. Əlavə edilmiş vərəqin yuxarı sağ hissəsində qurumun qeydiyyat nömrəsi və qeydiyyat tarixi və əsas səhifənin nömrəsi göstərilməklə hərflərlə sıralanmalıdır. Belə əlavələr edildikdə, reyestri aparan şəxs reyestr kitabının xüsusi qeydlər üçün ayrılmış hissəsində müvafiq əlavə barəsində qeyd yazmalıdır.

4.13. Dövlət reyestr kitablarının elektron variantı forma və məzmun etibarilə kağız daşıyıcılardan fərqlənmir. "Qeyri-kommersiya qurumlarının dövlət reyestr kitabı"nın elektron variantı vahid proqram texniki təminat əsasında tərtib edilir. Kommersiya hüquqi şəxslərinin, publik hüquqi şəxslərin dövlət reyestri məlumatları müasir informasiya və kommunikasiya texnologiyalarında istifadə edilməklə hazırlanmış xüsusi proqram təminatı vasitəsilə AVİS-də toplanır və müxtəlif aparat platformalarından istifadə edilməklə mühafizə edilir.

4.14. Dövlət reyestr kitabı ali təhsili olan şəxs tərəfindən aparılır.

4.15. Dövlət reyestr kitabı tərtib edildikdə aşağıdakılar təmin olunmalıdır:

4.15.1. qeyri-kommersiya qurumlarının reyestrinin illər və inzibati-ərazi vahidləri (rayon, şəhər) üzrə tərtib edilməsi;

4.15.2. qeyri-kommersiya qurumlarının reyestr nömrələrinin say ardıcıllığına əməl edilməsi; kommersiya hüquqi şəxslərinin və publik hüquqi şəxslərin reyestr nömrələrinin xüsusi alqoritm əsasında hazırlanmış proqram tərəfindən verilməsinə əməl edilməsi;

4.15.3. reyestrə daxil edilən qurumun adının və digər məlumatların təqdim edilmiş sənədlər əsasında düzgün yazılması;

4.15.4. reyestrdə əks etdirilən məlumatların bütöv verilməsi.

4.15.5. qurumların adlarının unikallığının gözlənilməsi.

4.16. Dövlət reyestr kitabında qeydlər aydın və yığcam şəkildə yazılmalıdır.

4.17. Dövlət reyestr kitabı Azərbaycan Respublikasının bütün qeydiyyat orqanlarında Azərbaycan dilində tərtib edilir. Xarici adlar Azərbaycan dilinin tələffüz qaydalarına uyğun şəkildə Azərbaycan əlifbası ilə yazılmalıdır.

4.18. Kağız və elektron daşıyıcılardakı qeydlər arasında ziddiyyət olduqda, qanunvericilikdə digər qayda nəzərdə tutulmayıbsa, kağız daşıyıcılardakı qeydlər üstün qüvvəyə malik olur.

## 5. Qurumların qeydiyyat (reyestr) nömrəsi

5.1. Dövlət qeydiyyatına alınan qurumlara vahid və təkrarolunmaz qeydiyyat nömrəsi verilir.

5.2. Qeydiyyat nömrəsi:

5.2.1. dövlət reyestrində;

5.2.2. qurumun dövlət reyestrində qeydiyyata alınmasını təsdiq edən dövlət qeydiyyatı haqqında şəhadətnamədə, dövlət reyestrindən çıxarış və nizamnamədə (əsasnamədə);

5.2.3. qeyri-kommersiya qurumlarının dövlət qeydiyyatı haqqında Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən buraxılan “Ədliyyə” qəzetində, dini qurumların dövlət qeydiyyatı haqqında Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən buraxılan “Cəmiyyət və din” qəzetində, kommersiya hüquqi şəxslərinin və publik hüquqi şəxslərin dövlət qeydiyyatı haqqında Azərbaycan Respublikasının Vergilər Nazirliyi tərəfindən buraxılan “Vergilər” qəzetində məlumat (kommersiya hüquqi şəxslərin təsisçiləri (iştirakçıları) və onların nizamnamə kapitalındakı payları barədə məlumatlar istisna olmaqla) dərc olunur.

5.3. Qeyri-kommersiya hüquqi şəxslərinin Qeydiyyat nömrəsi hər bir inzibati-ərazi vahidi (rayon və şəhər) üzrə qeydiyyata alınmış (həmçinin, uçota alınmış) qurumların ümumi sayının ardıcıllığına uyğun olaraq başlayır və davam etdirilir. Dövlət reyestr kitabının dəyişməsi və ya növbəti ilin başlanması qeydiyyata alınan qurumlara verilən nömrə ardıcıllığını dəyişmir.

5.3-1. Kommersiya hüquqi şəxslərinə, publik hüquqi şəxslərə Azərbaycan Respublikasının Vergilər Nazirliyi tərəfindən 10 rəqəmdən ibarət qeydiyyat nömrəsi (VÖEN) verilir. Qeydiyyat nömrəsindəki birinci iki rəqəm ərazi inzibati vahidinin kodunu, sonrakı altı rəqəm sıra sayını göstərir. Doqquzuncu rəqəm xüsusi alqoritm tərəfindən verilir, onuncu rəqəm isə hüquqi statusa uyğun olaraq seçilir. İnformasiya sistemi qeydiyyat nömrələrinin unikallığını təmin edir.

5.4. Qeyri-kommersiya qurumlarının Dövlət qeydiyyat (reyestr) nömrəsində qeydiyyat orqanının kodu, dövlət qeydiyyatının ili, Dövlət reyestr kitabının kodu və qurumun reyestr kitabında sıra sayı göstərilir.

5.5. Qeyri-kommersiya hüquqi şəxslərinin Qeydiyyat (reyestr) nömrəsindəki birinci dörd hərf və ya rəqəmlər inzibati ərazi vahidinin (rayon, şəhər) kodunu, ikinci iki rəqəm isə qeydiyyat ilini göstərir. Bu rəqəmlərdən sonra kitabın kodu göstərilir və tire işarəsi qoyulmaqla qurumların qeydiyyatının sıra sayını göstərən rəqəmlər yazılır. Dövlət reyestr kitablarının kodu hərf işarəsi ilə başlayır və ondan sonra sıra sayla rəqəm əlavə edilir (A1, A2 və s.).

5.6. Qurum ləğv edildiyi halda ləğv edilmiş quruma mənsub qeydiyyat nömrəsi silinmir və başqasına verilmir və bu barədə reyestrdə qeyd aparılır.

5.7. Reyestrdə dəyişiklik edilərkən, o cümlədən qurumun adı, təşkilati-hüquqi forması dəyişildikdə, qeydiyyat nömrəsi dəyişilmir.

5.8. Başqa dövlət orqanlarında qeydiyyata alınmış qurumlar bu Qaydalara uyğun şəkildə reyestrə daxil edilirlər. Bu halda qurumun əvvəlki qeydiyyat məlumatları reyestr

kitabının "hüquqi varislik" sütununda qeyd edilir və dövlət reyestrindən çıxarışda əks etdirilir. Bu qurumlar reyestrə daxil edilərkən, ilkin qeydiyyatdan sonra baş vermiş bütün dəyişikliklər reyestrdə yazılmalıdır.

## 6. Dövlət reyestrindən istifadə

6.1. "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun 15.2-ci maddəsinə əsasən dövlət qeydiyyatına alınmış və (və ya) dövlət reyestrinə daxil edilmiş hər bir quruma qeydiyyat orqanı tərəfindən onun dövlət qeydiyyatına alındığı və ya dövlət reyestrinə daxil edildiyi vaxt dövlət reyestrindən çıxarış göndərilməlidir (verilməlidir).

6.2. Dövlət reyestrindən çıxarış müəyyən edilmiş formada, qeydiyyat orqanının səlahiyyətli vəzifəli şəxsinin imzası ilə verilir və gerbli möhürlə təsdiqlənir.

6.3. Hər bir şəxs özü barəsində dövlət reyestrindəki yazılarla tanış olmaq, dövlət reyestrindən çıxarışı və qeydiyyat üçün təqdim olunmuş sənədlərin surətlərini tələb etmək hüququna malikdir. Müvafiq qeydiyyat orqanı istənilən maraqlı şəxsin tələbi ilə 15 gün müddətində qurumun dövlət qeydiyyatına alınması və ya alınmaması barədə məlumat verməlidir.

6.4. Dövlət reyestrindən çıxarışlar sorğu əsasında üçüncü şəxslərə də verilir. Bu halda çıxarışda əks olunan məlumatlar (kommersiya hüquqi şəxslərin təsisçiləri (iştirakçıları) və onların nizamnamə kapitalındakı payları barədə məlumatlar istisna olmaqla) sorğuya uyğun verilir.

6.5. Dövlət reyestrindən çıxarışlar (kommersiya hüquqi şəxslərin təsisçiləri (iştirakçıları) və onların nizamnamə kapitalındakı payları barədə məlumatlar istisna olmaqla) sənədlərin surəti şəklində də verilir. Sənədlərin surəti, dövlət orqanları və təsisçilər istisna olmaqla, digər şəxslərə rüsum ödənilməklə verilir.

6.6. Qurumların dövlət qeydiyyatına alınması və dövlət reyestrinə daxil edilməsinə dair, habelə qurumların təşkili və fəaliyyəti ilə əlaqədar dərc edilməsi, qanunvericiliklə nəzərdə tutulmuş digər məlumatlar (kommersiya hüquqi şəxslərin təsisçiləri (iştirakçıları) və onların nizamnamə kapitalındakı payları barədə məlumatlar istisna olmaqla) ümumi tanışlıq üçün dövlət qəzetində dərc edilir.

6.7. Qeyri-kommersiya qurumları dövlət qeydiyyatına alındıqdan və dövlət reyestrinə daxil edildikdən sonra hər ay müəyyən edilmiş formada Azərbaycan Respublikasının Vergilər Nazirliyinə və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə məlumat verilir.

6.8. Qanunvericiliklə müəyyən edilmiş hallarda dövlət qeydiyyatına alınmış qeyri-kommersiya qurumları ləğv edildikdə və ya dövlət reyestrindəki yazılar ləğv edildikdə, habelə qeyri-hökumət təşkilatları və xarici qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəlikləri fəaliyyətini dayandırdıqda və bərpa etdikdə, bu barədə Azərbaycan Respublikasının Vergilər Nazirliyinə və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə məlumat verilir. Azərbaycan Respublikasının Vergilər Nazirliyi Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə nəzərdə tutulmuş qaydada fəaliyyətini dayandırmış vergi ödəyicisi olan qeyri-hökumət təşkilatları və xarici qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəlikləri barədə məlumatları hər il avqust ayının 10-dək və fevral ayının 10-dək Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim edir.

6.8-1. Kommersiya hüquqi şəxsinin, publik hüquqi şəxsin habelə xarici kommersiya hüquqi şəxsinin nümayəndəlik və filiallarının dövlət qeydiyyatını aparan orqan:

hər gün dövlət qeydiyyatına aldığı kommersiya hüquqi şəxslərinin, publik hüquqi şəxslərin habelə xarici kommersiya hüquqi şəxsin nümayəndəlik və filialları barədə məlumatları (kommersiya hüquqi şəxslərin təsisçiləri (iştirakçıları) və onların nizamnamə kapitalındakı payları barədə məlumatlar istisna olmaqla) aidiyyəti üzrə Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə, Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinə və Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə elektron və (və ya) kağız daşıyıcı formasında göndərir;

qanunvericiliklə müəyyən edilmiş hallarda dövlət qeydiyyatına alınmış kommersiya hüquqi şəxsinin, habelə xarici kommersiya hüquqi şəxsinin publik hüquqi şəxsinnümayəndəlik və ya filialı ləğv edildikdə və ya dövlət reyestrindəki yazılar ləğv edildikdə, Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə, Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinə və Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə bir gün müddətində bu barədə məlumat (kommersiya hüquqi şəxslərin təsisçiləri (iştirakçıları) və onların nizamnamə kapitalındakı payları barədə məlumatlar istisna olmaqla) verir.

6.9. Elektron daşıyıcılarda tərtib edilən reyestr məlumatlarının saxlanılması və ötürülməsi zamanı dövlət statistika orqanlarında tətbiq edilən texniki-iqtisadi və sosial informasiyanın aşağıdakı təsnifatlarından istifadə edilir:

6.9.1. dövlət reyestrinə daxil edilmiş qurumların təşkilati-hüquqi formaları üzrə təsnifatı;

6.9.2. dünya ölkələrinin təsnifatı;

6.9.3. ölkə üzrə inzibati-ərazi vahidlərinin təsnifatı;

6.9.4. fəaliyyət növləri üzrə təsnifat.

## 7. çıxarılıb.

## 8. Dövlət qeydiyyatı orqanlarında saxlanmaq üçün verilmiş sənədlərin mühafizəsi

8.1. Dövlət qeydiyyatına alınmış hər bir qurum, habelə Azərbaycan Respublikasının ərazisində qeydiyyata alınmış hüquqi şəxsin yaratdığı qurumlar barədə məlumatlar reyestrə daxil edildikdən sonra onların qeydiyyata alınması və reyestrə daxil edilməsi üçün təqdim edilmiş sənədlər saxlanılmaq üçün arxivə verilir.

8.2. Dövlət reyestr məlumatlarını əks etdirən və qeydiyyat üçün təqdim edilən sənədlər toplusu, o cümlədən dövlət qeydiyyatı haqqında şəhadətnamə və dövlət reyestrindən çıxarış arxivdə müvafiq qurumun qeydiyyat nömrəsi altında saxlanılır.

8.3. Arxiv işinə məsul şəxs dövlət qeydiyyatına alınmış qeyri-kommersiya qurumun arxiv sənədlərinin qeydiyyat nömrələrinin ardıcıllığı üzrə arxivdə saxlanılmasını təşkil edir. Arxiv sənədlərinin itməsi, korlanması və məhv olmasının qarşısının alınması təmin edilir. Arxiv havası dəyişdirilən, quru, kənar şəxslərin daxil olmasına qadağa qoyulan, yanğından təhlükəsizliyi təmin edilən yerdə təşkil edilir.

8.4. qeyri-kommersiya qurumlarının Arxiv sənədlərinin hərəkəti xüsusi kitabda əks etdirilir. Qeydiyyat orqanında “Arxiv sənədlərinin hərəkəti”kitabı tətbiq edilir. Arxiv işinə məsul şəxs arxiv sənədini qeydiyyat orqanının əməkdaşlarına kitabda imza etdirməklə təhvil verir və təhvil alır. Dövlət qeydiyyatına alınmış kommersiya qurumlarının, publik hüquqi şəxslərin arxiv sənədlərinin saxlanılması qaydaları Azərbaycan Respublikasının Vergilər Nazirliyi tərəfindən müəyyən edilir.

8.5. Qeydiyyata alınmış hər bir qurumun qeydiyyata və saxlanmağa verilmiş bütün sənədləri xüsusi qovluqda saxlanılır. Qovluğun üzərində qurumun adı və qeydiyyat nömrəsi (vergi ödəyicisinin eyniləşdirmə nömrəsi) yazılır. Sənədlər bir qovluğa yerləşmədikdə, tələb olunan sayda qovluqlarda yerləşdirilir. Bu halda hər bir qovluğun üzərində qurumun adı və qeydiyyat nömrəsi (vergi ödəyicisinin eyniləşdirmə nömrəsi) ilə yanaşı, qovluqlar da sıra ardıcıllığı ilə rəqəmlərlə nömrələnir (Qovluq № 1, № 2 və s.).

8.6. Qeyri-kommersiya qurumlarının "Hüquqi şəxslərin qeydiyyatı barədə müraciətlər" kitabı, "Dövlət reyestri" kitabı, "Reyestrdə dəyişiklik edilməsi barədə müraciətlər" kitabı, "Arxiv sənədlərinin uçotu" kitabı və başqa orqanlarda qeydiyyata alınmış qurumların uçota alınması barədə tərtib edilmiş "Uçot kitabı"xüsusi müddət təyin edilənədək saxlanılır və mühafizə edilir. "Dövlət reyestri" kitabında qeydiyyata alınmış bütün qurumlar ləğv edildiyi halda, həmin kitab sonuncu ləğvetmədən sonra 75 il saxlanılır.

8.6.1. "Hüquqi şəxslərin qeydiyyatı barədə müraciətlər" kitabında ərizənin daxil olma nömrəsi və tarixi, hüquqi şəxsin adı və təşkilati-hüquqi forması, müraciət etmiş şəxs (ərizəçi) haqqında məlumat, sənədin icra vəziyyəti və təhvil verilməsi (göndərilməsi) haqqında qeydlər göstərilir.

8.6.2. "Reyestrdə dəyişiklik edilməsi barədə müraciətlər" kitabında müraciətin daxil olma nömrəsi və tarixi, qurumun adı, təşkilati-hüquqi forması, qeydiyyat nömrəsi və tarixi, müraciətin qısa məzmunu, sənədin icra vəziyyəti və təhvil verilməsi (göndərilməsi) haqqında qeydlər göstərilir.

8.6.3. "Arxiv sənədlərinin uçotu" kitabında qurumun adı, qeydiyyat nömrəsi və tarixi, təşkilati-hüquqi forması, saxlanılan sənədlər haqqında məlumatlar göstərilir.

8.7. Qeydiyyatda olan qurumun arxiv sənədləri müddətsiz saxlanılır. Ləğv edilmiş qurumların arxiv sənədlərinin saxlanma müddəti qurumun dövlət reyestrindən çıxarıldığı gündən sayılmaqla 75 ildir.

8.8. Ləğv edilmiş qurumların qeydiyyat sənədləri ləğvetmə ilə əlaqədar təqdim edilmiş bütün sənədlərlə birlikdə arxivdə saxlanılır. Həmin qurumların ayrıca siyahısı tutulur.

8.9. Qeydiyyatından imtina edilmiş qurumların, həmçinin reyestrdə qeydə alınmalı faktların dəyişikliyinin qeydiyyatından imtina sənədlərinin 3 il müddətinə saxlanılması təmin edilir.

8.10. Saxlanılma müddəti bitmiş sənədlər məhv edilir və bu barədə akt tərtib edilir.

8.11. Qurumun arxiv sənədləri tapılmadıqda və ya itmiş olduqda, həmin sənədlərin bərpası üçün tədbirlər görülür. Bu məqsədlə təsisçilərdə olan hüquqi şəxsin qeydiyyata alınmış nizamnaməsinin, şəhadətnaməsinin və s. təsis sənədlərinin notariat qaydada təsdiq edilmiş surəti alınır.

## 9. Dövlət reyestr məlumatlarının mühafizəsi

Dövlət reyestrinin mühafizəsi Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun həyata keçirilir.

***Qeyd.*** *Bu Qaydalarda dəyişikliklər Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə"nin 2.6-1-ci bəndinə uyğun edilə bilər.*

*Azərbaycan Respublikasının*
*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi*
*sədrinin 2011-ci il 26 dekabr tarixli 63*
*nömrəli qərarı ilə təsdiq edilmişdir.*